Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Azərbaycan-Avstraliya Biznes Forumu

Image not readable or empty
/uploads/images/news/513dc737be87ed55ab4c444718be97fa_600x500-resize_crop-2234.jpg

18 oktyabr 2017-ci il tarixində Avstraliya iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bakıda Azərbaycan-Avstraliya Biznes Forumu keçiriləcəkdir.

Tədbirə turizm, logistika, nəqliyyat, tikinti, təhsil, hüquq, daşınmaz əmlak, üzüm, şərab, ağartı məhsulları və ət istehsalı, mədən sənayesi və digər sahələrdə fəaliyyət göstərən 20-dən artıq Avstraliya şirkətinin qatılacağı gözlənilir.

Tədbirin 18 oktyabr tarixində saat 10:30-dan etibarən “Bakı Biznes Mərkəzi”ndə keçiriləcəyini diqqətinizə çatdırır və Sizi qeyd olunan tədbirdə iştirak etməyə dəvət edirik.

Tədbirdə iştirakda maraqlı olduğunuz halda, şirkətinizi təmsil edəcək şəxsin adını, soyadını və vəzifəsini telefon və ya e-mail vasitəsilə bizə bildirməyinizi xahiş edirik:

Tel.: +99412 5980147/48 / +99412 4371142 (daxili: 119/108/123)
E-mail: govchuyev@azpromo.az